# Səudiyyə Ərəbistanının investisiya naziri Zəngilanda olub





**Səudiyyə Ərəbistanı Krallığının investisiya naziri, Azərbaycan Respublikası hökuməti ilə Səudiyyə Ərəbistanı Krallığı hökuməti arasında Müştərək Komissiyanın həmsədri Xalid ibn Əbdül Əziz Əl-Falih və Azərbaycanın maliyyə naziri, Azərbaycan Respublikası hökuməti ilə Səudiyyə Ərəbistanı Krallığı hökuməti arasında Müştərək Komissiyanın həmsədri Samir Şərifov Zəngilan rayonuna səfər ediblər.**

AZƏRTAC xəbər verir ki, Zəngilan Beynəlxalq Hava Limanında Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük qayıdışa dair I Dövlət Proqramı çərçivəsində görülmüş işlər və qarşıda duran planlara dair brifinq keçirilib.

Brifinqdən sonra Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov və Zəngilan rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyevin də iştirakı ilə Səudiyyə Ərəbistanı Krallığından gələn 50-dən çox qonaq Zəngilan məscidinin yenidən qurulması, Zəngilan şəhərində həyata keçirilən bərpa və yenidənqurma işləri barədə məlumatlandırılıb. Qonaqlar eyni zamanda "Dost Aqropark" Ağıllı Kənd Təsərrüfatı kompleksinə baxış keçirib və burada yaradılan infrastrukturla yaxından tanış olublar.

Daha sonra səudiyyəli qonaqlar Zəngilan rayonunun Ağalı kəndində "ağıllı kənd" layihəsi ilə tanış olub, kənd sakinləri ilə görüşüblər. Həmçinin "Göyərçin" abidə-fəvvarə kompleksinə və meydana baxış keçirilib.

Sonda səfərdə iştirak edən qonaqlar Zəngilan Beynəlxalq Hava Limanından Bakı şəhərinə yola salınıblar.



Azərbaycan.- 2022.- 20 dekabr.- S.3.